# Müəllim şagirdi döyə bilərmi?

Niyazi RƏHİMOV, *"Azərbaycan müəllimi"*
n.rahimov@muallim.edu.az

**Vaxtilə uşaqlarını məktəbə qoyarkən müəllimə "əti sənin, sümüyü mənim" deyən valideynlər müəllimin övladını döyməsinə razı olsalar da, hətta bunu uşağının tərbiyəsi üçün vacib saysalar da müasir dövrümüzdə bu məsələyə tamamilə fərqli yanaşılır, uşaqların fiziki təsirə məruz qalmaları yolverilməz hesab edilir. Nəzərə çatdıraq ki, Beynəlxalq Uşaq Hüquqları Konvensiyasında, eləcə də ölkəmizdə qəbul olunmuş "Uşaq hüquqları haqqında", "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında da uşaqlara qarşı zorakılıq, ayrı-seçkilik, fiziki cəza və s. kimi "tərbiyə vasitələri" yolverilməz sayılır. Onların təzyiqlərə, diskriminasiyaya məruz qalmasının qarşısına sədd çəkilir. Ancaq bütün bunlara baxmayaraq, yenə də vaxtaşırı olaraq məktəblərdə uşaqların bəzi müəllimlər tərəfindən döyülməsi halları baş verir və bu, toxunduğumuz məsələni gündəmə gətirir. Belələri adətən şagirdlərə əl qaldırmalarının səbəblərini onların həddindən artıq nadinc, sözəbaxmayan, çətin uşaq olmaları, dərsi pozmaları, sinifdə özlərini apara bilməmələri, heç bir tərbiyə vasitəsinin onlara təsir etməməsi ilə əlaqələndirirlər. Deyirlər ki, belə uşaqlara təsir etmək üçün məktəbin, müəllimin əlində kifayət qədər təsirli vasitələr yoxdur. Lakin, bizim fikrimizcə, bu arqumentlər də müəllimin şagirdə əl qaldırmasına əsas verə bilməz. Bəs bu haqda mütəxəssislər və müəllimlər nə fikirdədir? Sualımıza cavab almaq üçün onlara müraciət etdik.**



## Təhsil ekspertləri nə düşünür?



**Asif Cahangirov,**
*təhsil eksperti*

Ümumiyyətlə, müəllimin şagirdə fiziki təzyiq göstərməyini cinayət hesab edirəm. Biz bu məsələdə heç bir halda müəllimə haqq qazandıra bilmərik. Bu kimi halların baş verməsinin əsas səbəblərindən biri kimi müəllim səriştəsizliyini görürəm. Dəfələrlə bu məsələ haqqında öz fikirlərimi bildirmişəm. Bizdə akademik biliyi yüksək olan müəllimə yaxşı müəllim deyilir. Lakin unutmayaq ki, peşəkar biliklər müəllim səriştəliliyinin bir komponentidir. Əsas səriştələrdən biri, bəlkə də ən vacibi - müəllimin sinfi idarə etmək bacarığıdır. Düşünürəm ki, müəllim səriştəsinin artırılması yolunda ciddi addımlar atılmalıdır. Bunun üçün ölkəmizdə səriştəyə əsaslanan təhsilə keçid qısa bir zamanda baş tutmalıdır. Müəllim sinifdə baş verə biləcək hər bir situasiyada o necə davranmağa hazırlanmalıdır.

Dərsdə diqqəti yayınan, dərsə qulaq asmayan, fənni zəif qavrayan şagirdə qarşı müəllim tərəfindən zor tətbiq edilməsinin həmişə əleyhinə olmuşam. Şagirdi dərsdə maraqlandırmağın müxtəlif üsulları var. Məsələn, müəllim işlədiyim dövrdə görəndə ki, şagird zəifdir, amma yaxşı rəsm çəkmək qabiliyyəti var, keçdiyim mövzu üzrə ona hansısa münasib cədvəli, sxemi çəkməyi, dərslikdən hansısa abzası rəsm ilə ifadə etməyi tapşırırdım. Dərsin bir hissəsini onun rəsmləri üzərində qururdum.

Pedaqoq dərk etməlidir ki, uşağı döyməklə, ona cəza verməklə şagirddə heç vaxt dərsə maraq oyanmayacaq. Biz şəxsiyyətyönlü təhsildən, əməkdaşlıq pedaqogikasından danışırıqsa, müəllimin şagirdinə əl qaldırması dəhşətdir, absurddur.



**Vidadi Bağırov,**
*təhsil eksperti*

Zaman-zaman qəzetləri, internet səhifələrini, radio və televiziya efirlərini müəllimin şagirdi döyməsi ilə bağlı xəbərlər bürüyür. Hara gedirsənsə, kimlərlə görüşürsənsə hamı ondan danışır. Düşünürəm ki, bu da təbiidir. Axı bir tərəfdən hər kəsin övladları, yaxud da ki, bu və ya digər dərəcədə yaxınları məktəbdə oxuyurlar. Heç kəs də övladlarının və yaxınlarının kimlərsə tərəfindən, elə müəllimlər tərəfindən də fiziki təzyiqlərə məruz qalaraq xəsarət almaları və gələcəkdə çoxlu xəstəliklərə gətirib çıxara biləcək psixoloji gərginlik keçirmələrini istəməz. Uşaqlara qarşı edilən zorakılıq hərəkətləri nəticəsində yarana biləcək xəstəliklər gələcəyin atası və anası olacaq uşaqlarımızın şəxsində qüsurlu nəslin yaranmasına, geniş mənada xalqımızın genefonduna vurulan bir zərbə olacaq. Digər tərəfdən isə zorakılığın qurbanı olan uşaqlar gələcəkdə cəmiyyətimizin tamhüquqlu üzvünə çevrilə bilməyəcək və onlarda hər bir məsələnin güc yolu ilə həll edilə biləcəyi kimi yanlış bir vərdiş, xarakter formalaşacaqdır. Hansı prizmadan baxılarsa müəllimin şagirdə fiziki güc tətbiq etməklə döyməsinə bəraət qazandırmaq olmur və hər bir halda müəllim bu məsələdə məsuliyyət daşıyır. Bu həm pedaqoji, həm hüquqi baxımdan belə qəbul olunur. Odur ki, müəllim həmkarlarımız bütün hallarda əsəblərinə, psixoloji durumlarına nəzarəti itirməməli, yaşla bağlı olaraq şagirdlərdəki şıltaqlıq və uyğunsuzluqları ustalıqla düzgün məcraya yönəltməlidir. Əks təqdirdə, yarana biləcək xoşagəlməz hadisələr müəllimin özünə də, işlədiyi kollektivə də başucalığı gətirmir. Belə hallar ümumən müəllimlik adına, məktəb adına böyük bir ləkəyə çevrilir, onsuz da "əskisi tüstülü olan" məktəbi bir az da hörmətdən salır. Əlbəttə, bir insan kimi fikirləşəndə müəllimin də əsəblərinin bir sonu, tarıma çəkiləcəyi məqam var və onu da bir bioloji varlıq olaraq başa düşmək olar. Amma elə peşələr var ki, orada dözümlülük və səbrin alternativi yoxdur. Bu peşələrdən biri də müəllimlikdir və onu seçən adamlar da müəllimliyin tələb etdiyi qaydalara uymalıdır, bu kimi xoşagəlməz insidentlərin yaranmasına heç bir halda rəvac verməməlidir.



**Şahlar Əsgərov,**
*təhsil eksperti*

Ulu öndər Heydər Əliyevin bir kəlamında deyilir: "Bizim ölkənin gələcək taleyi gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır". Göründüyü kimi, təhsil üçün zəruri məsələ gənclərə dövrün tələbinə uyğun nələrisə öyrətmək, kafi məsələ kimi isə necə öyrətməkdir. Çünki biz savadlı olsaq, hər şeyimiz olacaq, savadsız olsaq hər şeyi əlimizdən alacaqlar. Demək, bizim üçün əsas şərt savadlı olmaqdır. Bu məqsədə çatmaq üçün elmi-pedaqoji metodlardan istifadə edilir. "Qulaqburma" metodu da bu məqsədə-savadlı olmağa qulluq edir. Savadlı olmağın resepti dövlətlər üçün eyni deyildir. Çünki dünya dövlətlərində düşüncə fərqlidir. Sovet dövründə də cəza təqdir edilmirdi, amma cinayət də sayılmırdı. Güman edirəm ki, "qulaqburma olmaz" tezisi bizim pedaqoji təfəkkürün məhsulu deyil, xaricdən gələn ideoloji şüardır. Bu metod digər pedaqoji metodlarla bərabər fiziki cəza, fənni dərindən mənimsəmə məqsədi daşıyır. Sadəcə olaraq, düşüncə tərzi müxtəlf olduğundan eyni hadisəyə baxış da müxtəlifdir. Bu fərqləri doğuran səbəb nədir? Dünya dövlətləri BMT tərəfindən üç qrupa bölünür: I dünya dövlətləri, II dünya dövlətləri və III dünya dövlətləri. Bu dövlətlərdə həyat tərzləri çox fərqlidir, çünki əhalinin iqtisadi, mədəni, təhsil səviyyələri müxtəlifdir. İnkişaf səviyyəsinə görə Türkiyə, RF, Çin, İran, Azərbaycan, Gürcüstan və s. kimi dövlətlər II qrup ölkələrə aiddir. Qrup daxilində dövlətlərin təhsil göstəricilərini müqayisə etmək çox əhəmiyyətlidir, qruplararası müqayisə çox zərərlidir. İnkişaf etmiş dövlətlərdə "qulaqburma yoxdursa, biz də də olmasın" yanaşmasını düzgün hesab etmək olmaz. Biz özümüzü II dünya dövlətləri ilə müqayisə etməliyik. Bu dövlətlərdə əminəm ki, təhsildə "qulaqburma" metodundan istifadə edilib və bəzilərində indi də edilir. Məsələn, bugünkü Avstriyanın təhsil qaydaları keçmişdəki qaydalardan çox fərqlidir. Yəqin ki, o zaman da uşaqları ya dərs üstündə, ya da tərbiyə səbəbindən cəzalandırıblar. Yəni, qorxu faktorundan istifadə ediblər. Qərb ölkələrində müəllimlər xəz paltoda məktəbə gələ bilməz, ona görə ki, öz şagirdləri tərəfindən yumurta atəşinə tutularlar ki, sən vəhşi heyvanın ölümünə səbəbkarsan. Bununla bərabər, ABŞ-ın bir çox ştatlarında, Sinqapurda, Cənubu Koreyada təhsildə cəza verməyə qadağa yoxdur. Ona görə ki, qorxunun müalicə etmə xassəsi var. Bunu din də deyir, beynəlxalq təcrübə də. Bizdə el misalı var: "Qızını döyməyən, dizini döyər".

İnkişaf etmiş ölkələrdə təhsil dərk edilmiş həqiqətdir. Yəni, məktəbdə həm subyekt (müəllim), həm də obyekt (şagird) dərsə şüurla yanaşırlar. Hər kəs başa düşür ki, uşaq məktəbə oxumağa yox, öyrənməyə, başa düşməyə yox, mənimsəməyə gedir. Uşağa pulla qiymət yazdırmaq heç kəsin ağlına gəlmir. Heç kəs övladını pulla ali məktəblərə yerləşdirmir. Gənclər elm, sənət öyrənmənin hikmətini dərindən dərk edirlər. Gənclər ürəkləri istədiyi müəllimləri, sinifləri, fənləri seçdiklərinə görə, həvəslə dərsə gedirlər, öyrənirlər və dərsdən yayınmırlar. "Qulaqburma" metoduna, zora ehtiyac qalmır. II dünya ölkələrində bəzi müəllim, şagird və valideyn üçün təhsil dərk edilməmiş həqiqətdir. Məktəbdə münaqişə o zaman baş verir ki, müəllim öz məsuliyyətini anlayır, şagird isə anlamır. İnanıram ki, biz də I dünya ölkəsinə çevriləndə, nəinki məktəbdə şagirdlərə qulaqburması verməyəcəyik, heç sahibsiz itləri belə güllələməyəcək və ovdan da imtina edəcəyik.

## Tanınmış pedaqoq və psixoloqların fikirləri



**Adəm Günəş,**
*tanınmış türk pedaqoqu*

Cəza ilə tərbiyə olunan uşaqlarda "şəxsiyyətsizləşmə" olur. Cəza alan, cəza verməyi öyrənir. Nə zaman uşaqdan yaxşı bir hərəkət görünərsə, o təqdir edilməli, mükafatlandırılmalıdır! Əgər uşaq bir qəbahət işləyərsə və ya pis bir söz söyləyərsə, bir neçə dəfə görməzlikdən gəlməli, "onu etmə" deməməli, danlamamalıdır. Tez-tez danlanan uşaq cəsarətlənir, gizli etdiklərini açıq etməyə başlayar. Etdiyi yaramazlıqların zərəri özünə şirin dil ilə anladılmalı, inandırılmalıdır! Əgər uşağa cəza verərək tərbiyə etməyə çalışdığımız zaman onun içində yaşadığı zəlzələni görə bilsəydik, ona cəza verməkdə bu qədər rahat davranmazdı. Cəzanın təsiri həmin dəqiqə görünmədiyi üçün biz irəlidə qarşıya çıxacaq təhlükədən xəbərsiz cəza verməyə, cəzadan yardım almağa davam edib dururuq. Bununla birlikdə, cəza günümüzdə nə yazıq ki, "qəbul olunan" bir tərbiyə metodudur. Bir müqəssirə cinayətinə görə cəza vermək üçün normal şərtlərdə bir məhkəmə heyəti qurulub - bir deyil, bir neçə şəxsin qərarı ilə - cəza verilməsinin məcbur olduğu düşünülərkən, uşaqlara veriləcək cəzalarda nə bir məhkəmə, nə də bir heyət ehtiyacı duyulmamaqdadır. Çox zaman uşaqlara cəza verənlər (müəllimlər, valideynlər) həm prokuror, həm də hakim olaraq uşağı mühakimə etməkdə və buna layiq olduğunu düşündüyü cəzanı təkbaşına rahatlıqla tətbiq edə bilirlər.



**Narınc Rüstəmova,**
*uşaq psixoloqu*

Uşağı döyərək cəzalandırmaq onda zəif vicdanın formalaşmasına gətirib çıxarır. Döymək uşaqları nəzarətdə saxlamaq üçün sıx istifadə edilən metodlardan biridir. Təəssüf ki, bu tip "tərbiyə" üsulu ölkəmizdə çox istifadə olunur. Bu üsul uşaqda zəif vicdan və əxlaqın inkişafına gətirib çıxarır. Müasir dövrdə insan sərbəst düşünə bilmək, hər situasiyaya uyğunlaşmaq elastikliyinə malik olmalıdır. Şiddətlə böyüyən uşaq elastik yox, daha kinli olur. Uşaq dəcəllik edərkən döyülərsə, etdiyinin qarşılığını ödəmiş olduğunu düşünür və bu zaman etdiyinin pis nəticələrini düzəltmək üçün səy göstərməsinə gərək duymur. Döyülmək uşaqda müəllimlərinə qarşı aqressiya formalaşdırır. Dolayı yolla desək, uşaq etdiyinin pis bir şey olduğunu bilib özünü günahkar hiss etmək əvəzinə onu döyəni günahlandırır və ona qarşı güvənini sarsıdır.



**Hökümə Əliyeva,**
*Heydər Əliyev adına liseyin ibtidai sinif müəllimi, əməkdar müəllim*

Müəllimin hər bir şagirdə xüsusi yanaşma tərzi olmalıdır. Pedaqoji fəaliyyətim dövründə heç bir şagirdə fiziki təzyiq göstərməmişəm. Bu kimi halların əleyhinəyəm. Nadinc uşaqlara xüsusi yanaşma tərzim var. Fikrimcə, bu məsələdə müəllim səriştəliyi ön planda durur. Müasir müəllim hər bir situasiyadan çıxış yolu tapmalı, səbirli olmalıdır. Diferensial yanaşmaya daha çox üstünlük verməlidir. Hətta təkcə şagirdlərə deyil, valideynlərə də diferensial yanaşmalıdır. Lakin cəmiyyət də bu işlərdə müəllimə kömək etməli, dəstək verməlidir. Məsələn, dərsə laqeyd yanaşan, tədris prosesini pozan şagirdlərə məktəbdə ictimai qınaq olmalıdır. Düşünürəm ki, bu sahədə geniş maarifləndirmə işləri aparılmalı, həm valideynlərə, həm də şagirdlərə ətraflı məlumatlar verilməlidir.



**Sevil Əliyeva,**
*Heydər Əliyev adına liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi, əməkdar müəllim*

30 ildir ki, müəllim işləyirəm. Müəllimin şagirdə qarşı fiziki təzyiq göstərməsinin əleyhinəyəm. Heç bir situasiya müəllimin şagirdi döyməsinə səbəb ola bilməz. Lakin düşünürəm ki, özünü sinifdə apara bilməyən, tədris prosesini pozan şagirdlərə qarşı onların hər hansı bir neqativ hərəkətlərinin qarşısının alınması üçün bir mexanizm olmalıdır. Hər şeyi müəllimin üzərinə yıxmaq olmaz. Bu işdə valideynlərin də üzərinə böyük məsuliyyət düşür. Bəzi valideynlər övladlarını məktəbə yola salmaqla, müxtəlif ehtiyaclarını ödəməklə işlərinin bitdiyini düşünürlər. Lakin unutmayaq ki, məktəb-şagird-valideyn üçbucağında valideynin də üzərinə böyük məsuliyyət düşür.



**Gülnarə İsmayılova,**
*Heydər Əliyev adına liseyin ingilis dili müəllimi, "Tərəqqi" medallı*

Uzun illərdir ki, pedaqoji fəaliyyətlə məşğulam. Bu illər ərzində təbii ki, tədris prosesini pozan, dərsə məsuliyyətsiz yanaşan şagirdlərə çox rast gəlmişəm. Çalışmışam ki, onları hər hansı bir üsulla tərbiyə edim. Lakin heç vaxt şagirdi döyməyin tərəfdarı olmamışam. Onlarla xüsusi söhbətlər aparmaqla, valideynlərini məktəbə çağıraraq problemin birgə həllinə çalışmışam. Bu kimi hallar baş verəndə əvvəllər valideynlər biz müəllimləri yaxşı başa düşür, övladlarını tənbeh edirdilər. Amma son dövrlərdə bir çox valideynlər müəllimləri başa düşmək istəmir. Hər bir məsələdə müəllimi günahlandırırlar. Düşünürəm ki, bunun səbəbi müəllim nüfuzunun aşağı olması ilə əlaqədardır. Müəllim nüfuzunun aşağı düşməsində KİV-in də rolu olduğunu deyərdim. Məncə, məktəbdaxili məsələlərin bu qədər ictimailəşməsi yaxşı hal deyil.